

"Azərbaycan xalqının özünü, öz dövlətini qoruya bilən əsgərləri, zabitləri, ordusu var".

# AZƏRBAYCAN ORDUSU

AZƏRBAYCAN RESPUBLİKASI MÜDAFİƏ NAZİRLİYİNİN ORQANI

Qəzet 1992-ci il fevralın 11-dən çıxır 14 yanvar 2023-cü il №3 (2715) https://mod.gov.az Qiyməti 30 qəpik


## Azərbaycan Prezidenti İlham Əliyev İtaliyanın müdafiə nazirini qəbul edib

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev yanvarın 11-də İtaliya Respublikasının müdafiə naziri Quido Krosettonu qəbul edib.*



AZƏRTAC xəbər verir ki, Prezident İlham Əliyev strateji tərəfdaşlığa əsaslanan Azərbaycan-İtaliya ikitərəfli münasibətlərinin uğurla inkişaf etdiyini bildirərək, bu baxımdan yüksək səviyyəli qarşılıqlı səfərlərin əhəmiyyətini vurğuladı, özünün İtaliyaya son səfərini məmnunluqla qeyd edib.

Dövlətimizin başçısı İtaliya Respublikası Nazirlər Şurasının yeni sədri Ciorcia Meloniyə təbrik məktubu göndərdiyini xatırlayaraq, yeni hökumətin formalaşmasından qısa müddət keçməsinə baxmayaraq, müdafiə naziri səviyyəsində ölkəmizə səfərin həyata keçirilməsinin əlaqələrimizin yaxşı göstəricisi olduğunu qeyd edib və əminliyini bildirib ki, yeni hökumətlə Azərbaycan arasında əməkdaşlıq uğurlu olacaq.

Romanın tarixi rayonunda Azərbaycan səfirliyinin yeni binasının açılışında ilk tədbirin ADA Universiteti ilə İtaliyanın beş aparıcı ali təhsil müəssisəsi arasında akademik əməkdaşlığa dair imzalanmış sazişlərin mübadiləsi mərasiminə həsr olunduğunu xatırladan Prezident İlham Əliyev İtaliya-Azərbaycan Universitetinin Azərbaycandakı binasının inşasının yekunlaşmaq üzrə olduğunu deyib.

Dövlətimizin başçısı Azərbaycan-NATO və Azərbaycan-Avropa İttifaqı əlaqələrinin genişlənməsində İtaliyanın verdiyi töhfəni yüksək qiymətləndirərək qeyd edib ki, ölkələrimiz arasında müxtəlif sahələrdə, o cümlədən energetika sahəsində uğurlu əməkdaşlıq aparılır. Prezident İlham Əliyev bu baxımdan Cənub Qaz Dəhlizinin səmərəli fəaliyyətini vurğulayıb. Prezident İlham Əliyev Quido Krosettonun Azərbaycana səfərinin həm ölkələrimizin aidiyyəti qurumları arasında, həm də daha geniş mənada əməkdaşlığın möhkəmlənməsi işinə xidmət edəcəyinə əminliyini bildirib, ikitərəfli münasibətlərimizin bundan sonra da möhkəmlənəcəyinə ümidvarlığını ifadə edib.

Prezident İlham Əliyev ilə görüşdən şərəf duyduğunu bildirən Quido Krosetto, ilk növbədə, İtaliya Prezidenti Sercio Mattarellanın salamlarını dövlətimizin başçısına çatdırıb və qeyd edib ki, səfərdən öncə İtaliya Prezidenti ilə görüşü zamanı Sercio Mattarella özünün Azərbaycana, dövlətimizin başçısının isə İtaliyaya səfərini məmnunluqla xatırlayıb və Azərbaycan Prezidenti ilə dostluq əlaqələrinin mövcudluğunu bir daha vurğulayıb.

Dövlətimizin başçısı salamlara və xoş sözlərə görə minnətdarlığını bildirib, onun da salamlarını İtaliya Prezidentinə çatdırmağı xahiş edib.

Quido Krosetto səfərdən əvvəl, eyni zamanda, İtaliya Respublikası Nazirlər Şurasının Sədri Ciorcia Meloni ilə də görüşdüyünü bildirərək qeyd edib ki, Ciorcia Meloni vurğulayıb ki, İtaliya müdafiə nazirinin ölkəmizə səfəri İtaliya hökumətinin Azərbaycanla əməkdaşlığı daha da genişləndirmək əzmində olduğunu göstərir.

Nazir Quido Krosetto qeyd edib ki, Azərbaycan Prezidentinin İtaliyaya səfərləri bu ölkədə hər zaman böyük məmnunluqla qarşılanır.

Qonaq Prezident İlham Əliyevin Azərbaycan-NATO və Azərbaycan-Avropa İttifaqı əlaqələrinin inkişafında İtaliyanın oynadığı rola verdiyi qiymətə görə minnətdarlığını ifadə edib.

Quido Krosetto Bakıda gedən inkişaf proseslərinin onlarda dərin təəssürat hissi yaratdığını deyib.

Söhbət zamanı energetika, inşaat, turizm, kənd təsərrüfatı, müdafiə sənayesi və digər sahələrdə əməkdaşlığın genişləndirilməsi üçün yaxşı perspektivlərin olduğu bildirilib.

## Prezident İlham Əliyevdən həssas qruplara növbəti dəstək: müavinət və təqaüdlər artırıldı

Prezident İlham Əliyevin imzaladığı yeni Fərman və sərəncamlar 2023-cü il üzrə yeni sosial islahat paketi çərçivəsində əhalinin rifahının yaxşılaşdırılması, bir sıra kateqoriyalara, o cümlədən şəhid ailələrinə, müharibə ilə əlaqədar əlilliyi olan şəxslərə və b. yönələn sosial ödənişlərin artırılması istiqamətində növbəti mühüm addımların atılmasını təmin edir. Bununla da son beş ildə artıq dördüncü sosial islahat paketi reallaşır.

İmzalanmış yeni Fərman və sərəncamlara əsasən, 2023-cü il yanvarın 1-dən: Şəhid ailəsi üçün Prezidentin aylıq təqaüdü - 600 manata çatdırılır;

Müharibə, 20 Yanvar hadisələri, hərbi xidmət vəzifələrini yerinə yetirməklə və Çernobıl AES-də hərbi xidmətlə əlaqədar əlilliyi müəyyən edilmiş şəxslərə Prezidentin aylıq təqaüdü, orqanizmin funksiyalarının: 81-100 faiz pozulmasına görə (I dərəcə) - 500 manata, 61-80 faiz pozulmasına görə (II dərəcə) - 400 manata, 31-60 faiz pozulmasına görə (III dərəcə) - 330 manata çatdırılır;

Uşağın anadan olmasına görə birdəfəlik müavinət - 500 manata çatdırılır;

Dəfn üçün birdəfəlik müavinət - 500 manata çatdırılır;

Radiasiya qəzası nəticəsində zərər çəkmiş şəxslərə hər il müalicə üçün birdəfəlik müavinət - 300 manata çatdırılır;

Əlilliyi olan şəxslərə müavinət, orqanizmin funksiyalarının: 81-100 faiz pozulmasına görə (I dərəcə) - 270 manata, 61-80 faiz pozulmasına görə (II dərəcə) - 220 manata, 31-60 faiz pozulmasına görə (III dərəcə) - 150 manata çatdırılır.

Ümumi səbəblərdən orqanizmin funksiyalarının 81-100 faiz pozulmasına görə (I dərəcə) gözdən əlilliyi müəyyən edilmiş şəxslərə Prezidentin aylıq təqaüdü - 300 manata çatdırılır;

Ümumi səbəblərdən orqanizmin funksiyalarının 81-100 faiz pozulmasına görə (I dərəcə) əlilliyi müəyyən edilmiş şəxslərə (gözdən əlilliyi olan şəxslər istisna olmaqla) Prezidentin aylıq təqaüdü -200 manata çatdırılır;

1941-1945-ci illər Böyük Vətən müharibəsi iştirakçılarına Prezidentin aylıq təqaüdü -330 manata çatdırılır;

Yaşa görə müavinət - 220 manata çatdırılır;

Ailə başçısını itirməyə görə müavinət (hər ailə üzvü üçün) - 120 manata çatdırılır;

Bir yaşınadək uşağı olan aztəminatlı ailələrə (ünvanlı sosial yardım alan) hər uşağa görə müavinət - 100 manata çatdırılır;

Beşdən çox uşağı olan qadınlara hər uşağa görə müavinət - 105 manata çatdırılır;

Orqanizmin funksiyalarının 81-100 faiz pozulmasına görə (I dərəcə) və 18 yaşınadək əlilliyi olan şəxslərə qulluq edənlərə Prezidentin aylıq təqaüdü - 100 manata çatdırılır;

Əsas iş yeri üzrə elm və təhsil müəssisələrində azı 25 il çalışmış, elmi dərəcəsi olan, işləməyən pensiyaçılara Prezidentin aylıq təqaüdü:

elmlər doktoru elmi dərəcəsinə görə - 500 manata,

fəlsəfə doktoru elmi dərəcəsinə görə - 300 manata çatdırılır.

Fəxri adlara layiq görülmüş şəxslərə aylıq təqaüd:

"Xalq" fəxri adına görə - 200 manata,

"Əməkdar" fəxri adına görə - 150 manata çatdırılır;

Prezidentin fərdi təqaüdü - 1500 manata çatdırılır;

Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin İctimaiyyətlə əlaqələr şöbəsindən AZƏRTAC-a bildirilib ki, yeni Fərman və sərəncamlarla ümumilikdə 660 min nəfərə yönələn sosial ödənişlərin artırılması təmin edilir.

Qeyd edək ki, 2023-cü ildə yeni sosial islahat paketi üzrə 1,9 milyon vətəndaşı əhatə edən sosial ödənişlərdə növbəti artımlar üçün illik əlavə 750 milyon manat vəsait nəzərdə tutulub.

# Azərbaycan-İtaliya hərbi əməkdaşlığı yeni inkişaf mərhələsinə yüksəlib





*Müdafiə Nazirliyi Mətbuat Xidməti xəbər verir ki, yanvarın 12-də Azərbaycan Respublikasının müdafiə naziri general-polkovnik Zakir Həsənov İtaliya Respublikasının müdafiə naziri Quido Krosettonun rəhbərlik etdiyi nümayəndə heyəti ilə görüşüb.*

Əvvəlcə Müdafiə Nazirliyində təntənəli qarşılama mərasimi olub, hər iki ölkənin müdafiə nazirləri fəxri qarovulun önündən keçiblər. Azərbaycan və İtaliyanın Dövlət Himnləri səsləndirilib.



Cənab Q.Krosetto protokola uyğun olaraq "Şərəf kitabı"nı imzalayıb.

Sonra general-polkovnik Zakir Həsənov qonaqları salamlayaraq onları ölkəmizdə görməkdən məmnun olduğunu bildirib.

Müdafiə naziri nümayəndə heyətini Vətən müharibəsindən sonra bölgədə yaranan hərbi-siyasi vəziyyət barədə məlumatlandırıb.

Azərbaycan və İtaliya arasında hərbi təhsil sahəsində, eləcə də NATO çərçivəsində əməkdaşlığın sürətlə davam etdiyi və bu münasibətlərin yüksək qiymətləndirildiyi vurğulanıb.

General-polkovnik Zakir Həsənov bu səfərin Azərbaycan və İtaliya arasında hərbi əməkdaşlıq sahəsində yeni inkişaf mərhələsinin başlanğıcı olduğunu qeyd edib.

İtaliya Respublikasının müdafiə naziri Q.Krosetto isə öz növbəsində göstərilən qonaqpərvərliyə görə təşəkkür edərək hər iki ölkə arasında hərbi əməkdaşlığın genişləndirilməsinin vacibliyini bildirib.

Ölkələrimiz arasında strateji tərəfdaşlığa əsaslanan münasibətlərin inkişaf etdirilməsində qarşılıqlı səfərlərin əhəmiyyəti xüsusi vurğulanıb.

Görüşdə Azərbaycan və İtaliya Respublikaları arasında hərbi, hərbi-texniki və hərbi təhsil sahəsində əməkdaşlığın daha da genişləndirilməsi, eləcə də qarşılıqlı maraq doğuran digər məsələlər müzakirə olunub.

Sonda hər iki ölkənin müdafiə nazirləri təlim və təhsil sahəsində əməkdaşlıq haqqında niyyət protokolunu imzalayıblar.



## Gənc zabitlərimiz

# Vətənpərvər oğul

Vətənpərvərlik - ayları, illəri Vətən üçün yaşamaqdır. Vətənpərvərlik - Vətənə ən ülvi məhəbbətdir və insanın daxilində olan müqəddəs bir hissdir. Bir şəxsdə bu hiss yoxdursa, o, nə Vətənini, nə torpağını, nə də valideynlərini sevə bilər. Neçə-neçə qəhrəman vətənpərvər oğullarımız, var, doğma Vətəni üçün bir an belə düşünmədən canlarından keçənlər də olub. Düşmənə qarşı son damla qanlarına qədər vuruşan oğullarımız doğma diyarımızın istiqlalı, ölkəmizin müstəqilliyi və azadlığı yolunda şəhidlik zirvəsinə ucalıblar.

İndiki gənclərimiz əcdadlarımızın qəhrəmanlıq nümunələrini özlərinə örnək bilib, onların qəhrəmanlıq yollarını uğurla davam etdirirlər. Bu gün müstəqil Azərbaycanı qoruyub saxlamaq, onun müstəqilliyini əbədi etmək üçün əllərindən gələni əsirgəmirlər. 2020-ci il sentyabrın 27-də başlayan Vətən müharibəsi Azərbaycan əsgərinin qüdrətini tarixləşdirdi. İllərdir gerçək sahibinin yolunu həsrətlə gözləyən Qarabağımız erməni vandallarından azad edildi. Əlbəttə, bu şanlı Qələbəni Azərbaycan xalqına yaşadan igid əsgər və zabitlərimiz oldu. Onların sayəsində doğma Qarabağımızın üzərindən qara buludlar çəkildi və elobalarından didərgin düşən soydaşlarımız yenidən öz evlərinə geri dönürlər.

Bu qələbəni xalqa yaşadan oğullarından biri də "N" hərbi hissəsində xidmətini uğurla davam etdirən kapitan Asim Tapdıqovdur. Goranboy rayonunun Gürzalılar kəndində dünyaya göz açan Asim hər zaman hərbçi olmaq istəyib. 2009-cu ildə Goranboy rayon Gürzalılar kəndindəki Afəddin Vəliyev adına tam orta məktəbi bitirdikdən sonra Heydər Əliyev adına Azərbaycan Ali Hərbi Məktəbinə (indiki Heydər Əliyev adına Hərbi İnstitut) qəbul oldu. Dörd il təhsil aldıqdan sonra "leytenant" hərbi rütbəsinə layiq görüldü. O, xid-



mətinin ilk günündən etibarən fərqlənməyə və verilən bütün əmr və tapşırıqları vaxtlı-vaxtında yerinə yetirməyə çalışdı. Bunun nəticəsidir ki, o, bu gün Azərbaycan Ordusunun peşəkar və təcrübəli zabitlərindən biridir. Bu təcrübəsini Vətən müharibəsində də bacarıqla istifadə edib, düşmənə göz açmağa imkan verməyib. Onun şücaəti nəticəsində düşmən xeyli sayda itki verdi. Kapitan Asim Tapdıqov Azərbaycan Respublikasının ərazi bütövlüyünün bərpa edilməsi zamanı döyüş əməliyyatlarına yüksək peşəkarlıqla rəhbərlik etdiyi, düşmənin canlı qüvvəsinin və döyüş texnikasının məhv edilməsində fədakarlıq və rəşadət göstərdiyi, vəzifə borcunu ləyaqətlə və vicdanla yerinə yetirdiyi üçün Azərbaycan Respublikası Prezidentinin müvafiq sərəncamları ilə 3-cü dərəcəli "Vətənə xidmətə görə" ordeni və "Füzulinin azad olunmasına görə" medalı ilə təltif edilib.

Kapitan Asim Tapdıqov dedi ki, İkinci Qarabağ müharibəsinin döyüşləri bu günün əsgərləri üçün həm tarixdir, həm də döyüş dərsliyi. Ona görə müharibə iştirakçıları olmuş zabitlərin döyüş təəssüratlarını maraqla dinləyirlər, öyrənirlər...

**Kapitan**
**Orxan HÜSEYNLİ**
**"Azərbaycan Ordusu"**

## "Ermənistan İkinci Qarabağ müharibəsində insan haqlarının bütün prinsiplərini pozub"

Qırx dörd günlük Vətən müharibəsində Ermənistan silahlı qüvvələri Azərbaycanın xüsusilə mülki əhalinin sıx yaşadığı yaşayış yerlərinə ballistik raketlərlə zərbə vurması nəticəsində, uşaq, qadın və qocalar da daxil olmaqla, çox sayda insanın həyatını itirməsi və yaralanması insan haqlarının, beynəlxalq hüququn əsaslı bir şəkildə pozulması ilə nəticələnib. Müstəqil insan haqlarını qoruyan təşkilat kimi haqqında bəhs etdiyimiz hücumların hədəfində olan yerlərdə apardığımız araşdırmalar bütün bunların müharibə cinayətləri olduğunu təsdiqləyib.

AZƏRTAC xəbər verir ki, bu fikirləri Azərbaycanın İnsan Hüquqları üzrə müvəkkili (ombudsman) Səbinə Əliyeva Ankarada "XXI əsrdə insan haqlarının gələcəyi" mövzusunda keçirilən beynəlxalq konfransdakı çıxışında ifadə edib.

Ermənistanın Azərbaycana qarşı çoxistiqamətli cinayətlərindən, eləcə də qadağan olunmuş silahlardan istifadə etməsinə dair faktlardan bəhs edən ombudsman Səbinə Əliyeva deyib: "İkinci Qarabağ müharibəsi zamanı Ermənistan silahlı qüvvələri tərəfindən mülki əhalinin məskunlaşdığı yaşayış yerlərinə vurulan zərbələr nəticəsində 12 uşaq həyatını itirib, 54 məktəb binası dağıdılıb".

Ombudsman Səbinə Əliyeva diqqətə çatdırıb ki, İkinci Qarabağ müharibəsi günlərində və ondan sonrakı dövrdə işğalçı Ermənistan tərəfindən insan haqlarının, beynəlxalq hüququn pozması ilə bağlı hazırlanan 15 raport bu sahəni əhatə edən beynəlxalq təşkilatlara göndərilib. Bütün sənədlərdə əsaslandırılıb ki, işğalçı Ermənistan İkinci Qarabağ müharibəsində insan haqlarının bütün prinsiplərini pozub. Bütün bu cinayətlərin yerindəcə araşdırılmasında və dünya ictimaiyyətinə, eləcə də insan haqları üzrə beynəlxalq təşkilatlara çatdırılmasında Türkiyənin Ombudsman təsisatı yaxından iştirak edib.

# Baş Qərargah rəisi Hərbi İnstitutda olub



*Müdafiə Nazirliyi Mətbuat Xidməti xəbər verir ki, yanvarın 11-də müdafiə nazirinin birinci müavini - Azərbaycan Ordusunun Baş Qərargah rəisi general-polkovnik Kərim Vəliyev Heydər Əliyev adına Hərbi İnstitutda olub.*

General-polkovnik Kərim Vəliyev semestr imtahanlarının gedişini yoxlayıb, Hərbi İnstitutun tədris-maddi bazasına baxış keçirib, elektron kitabxana, kompüter və digər sinif otaqlarında yaradılan şəraitlə tanış olub.

Baş Qərargah rəisi şəxsi heyətlə görüşərək onların qarşısında çıxış edib.

Vətən müharibəsində əldə edilmiş qələbədən sonra bölgədə yaranan vəziyyət, azad edilmiş ərazilərdə həyata keçirilən bərpa-quruculuq işləri çərçivəsində hərbi infrastrukturun genişləndirilməsi və digər məsələlərə toxunan general-polkovnik Kərim Vəliyev Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin son müsahibəsində Azərbaycan Ordusu ilə bağlı səsləndirdiyi fikirləri bir daha şəxsi heyətə çatdırıb. O, Ali Baş Komandanın istənilən əmrini yerinə yetirməyə ordumuzun hər an hazır olduğunu bildirərək ölkəmizin Cənubi Qafqazın ən güclü ordusuna malik olduğunu xüsusi vurğulayıb.



Hərbi təhsil sahəsində qardaş Türkiyə və dünyanın digər qabaqcıl ölkələrinin təcrübəsindən yararlanmağın vacibliyini qeyd edən Baş Qərargah rəisi gələcək zabitlərin peşəkar komandir kimi yetişməsi üçün fərdi hazırlığa xüsusi diqqət yetirilməsini, habelə bilik və bacarıqlarının daim artırılmasını tövsiyə edib.

Hərbi təhsil sahəsində islahatların davam etdiriləcəyini qeyd edən general-polkovnik Kərim Vəliyev təlim və tədris prosesinin daha keyfiyyətli təşkili ilə bağlı müdafiə nazirinin tapşırıqlarını aidiyyəti vəzifəli şəxslərə çatdırıb.





# Bölmələrimizin xidməti-döyüş fəaliyyəti istənilən hava şəraitində yüksək səviyyədə təşkil olunur

Müdafiə naziri general-polkovnik Zakir Həsənovun tapşırığına əsasən, Azərbaycan Ordusunun bölmələrində, xüsusilə də çətin relyefli və dağlıq ərazilərdə dislokasiya olunan hərbi hissələrdə istənilən hava şəraitində xidməti-döyüş fəaliyyətinin yüksək səviyyədə təşkili üçün nazirliyin müvafiq qurumlarının nəzarəti ilə bütün zəruri tədbirlər həyata keçirilib və hazırda da bu istiqamətdə görülən işlər plana uyğun davam etdirilir.

Müdafiə Nazirliyi Mətbuat Xidməti xəbər verir ki, bölmələrimizin döyüş mövqelərində gecə və gündüz döyüş növbətçiliyinin aparılmasını mümkün etmək məqsədilə qış dövrünə hazırlıq planına əsasən soyuq iqlim üçün xüsusi isti geyimlər paylanılıb, zəruri dərman preparatlarının və odun, kömür, o cümlədən maye yanacağının tədarükü görülüb.

Yeni istifadəyə verilmiş birləşmiş anbarlar vasitəsilə Kəlbəcər və Laçın rayonları ərazilərində dislokasiya olunan bütün bölmələrin cari təminatı fasiləsiz həyata keçirilir. Müalicə və müayinə olunmaq məqsədilə təxliyəsi zəruri olan hərbi qulluqçuların, eləcə də yüklərin daşınması üçün xüsusi texnika və xizəklərdən istifadə edilir, dağlıq və soyuq bölgələrdə xidmət edən şəxsi heyətin qidalanmasında immuniteti gücləndirən ərzaqlara və digər qidalara üstünlük verilir.

Əlavə olaraq mövsümi xəstəliklər və donvurma halları ilə bağlı şəxsi heyətlə mütəmadi olaraq maarifləndirici söhbətlər aparılır, lazımi profilaktik tədbirlər görülür. Qabaqlayıcı addımların nəticəsidir ki, ordumuzun bölmələrində donvurma halı qeydə alınmayıb.

Qış mövsümündə təxliyə yollarının işlək vəziyyətdə saxlanması məqsədilə Mühəndis Qoşunlarının digər dövlət qurumları ilə qarşılıqlı fəaliyyəti nəticəsində təminat və digər yolların qardan təmizlənməsi növbəli şəkildə icra olunur, yeni yolların çəkilməsi prosesi davam etdirilir.



Təkcə Kəlbəcər və Laçın rayonları ərazisində cari ilin əvvəlindən bu günədək 804 km yolun qardan təmizlənməsilə hərbi, eləcə də mülki nəqliyyatın fasiləsiz hərəkəti təmin edilib.

Yüksək qar örtüyünün düşməsi ilə əlaqədar təhlükəli ərazilərə əlavə işarəverici çubuqlar basdırılıb, şəxsi heyət təhlükəsizlik qaydalarına ciddi əməl olunması ilə bağlı təlimatlandırılıb.

Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyevin diqqət və qayğısı nəticəsində Azərbaycan Ordusunun bütün hərbi hissələrinin, o cümlədən çətin relyefli və dağlıq ərazilərdə dislokasiya olunan bölmələrimizin şəxsi heyətinin mənəvi-psixoloji vəziyyəti yüksək səviyyədədir, qarşıya qoyulan xidməti-döyüş tapşırıqları qış dövründə də yüksək peşəkarlıqla icra olunur.

# “Rusiya Azərbaycan-Ermənistan danışıqlarını keçirməyə hazırdır”

Rusiyanın Ermənistanla Azərbaycan arasında danışıqları keçirmək təklifi qüvvədədir.

AZƏRTAC xəbər verir ki, bu sözləri Rusiya Xarici İşlər Nazirliyinin (XİN) rəsmi nümayəndəsi Mariya Zaxarova söyləyib.

Onun bu gün yayılmış şərhində qeyd olunur ki, əgər Ermənistan tərəfi həqiqətən problemlərin yüksək səviyyədə qəbul olunmuş üçtərəfli razılaşmalar baxımından həllində maraqlıdırsa, birgə iş davam etdirilməlidir. Rusiyanın danışıqların təşkilinə dair təklifi qüvvədədir.

M.Zaxarova xatırladıb ki, Azərbaycan və Ermənistan xarici işlər nazirlərinin görüşünün 2022-ci il dekabrın 23-də Moskvada keçirilməsi planlaşdırılmışdı. İki ölkə liderləri bu görüşə razılıq vermişdilər. Məhz Ermənistan tərəfi son anda xarici işlər naziri Ararat Mirzoyanın Moskvaya səfərini ləğv etdi. Bu, təkcə sülh müqaviləsini deyil, digər vacib məsələlərin, o cümlədən Laçın yolu ətrafında vəziyyətin müzakirəsini təxirə saldı.

Rusiya XİN rəsmisi vurğulayıb ki, rəsmi İrəvan sülh müqaviləsinin 1991-ci il Almatı bəyannaməsi əsasında imzalanmasına razılıq verib. Bu sənədə əsasən, Dağlıq Qarabağ Azərbaycanın ayrılmaz hissəsidir.

# MOİK-in idmançıları Prezident tərəfindən mükafatlandırıldı




*Azərbaycanın ictimai-siyasi, iqtisadi və mədəni həyatının bütün sahələrində olduğu kimi, idman sahəsi də Azərbaycan dövlətçiliyinin təşəkkülündə və inkişafında misilsiz rol oynamış Ümummilli Lider Heydər Əliyevin adı ilə bağlıdır. Azərbaycanın tarixinə, öz xalqının milli xüsusiyyətlərinə dərindən bələd olan Ulu Öndər xalqımızın idmana marağını yüksək dəyərləndirərək "Fiziki sağlamlıq və fiziki güc, mənəvi sağlamlıqla bərabər, Azərbaycan xalqına, millətinə xas olan xüsusiyyətdir" demişdir.*

Dahi şəxsiyyətin yürütdüyü siyasət bu gün Azərbaycan Respublikasının Prezidenti, Müzəffər Ali Baş Komandan İlham Əliyev tərəfindən uğurla davam etdirilir. Azərbaycanda idmana göstərilən qayğının nəticəsi olaraq bir çox idman növləri üzrə keçirilən Beynəlxalq turnirlərdə idmançılarımızın istər fərdi, istərsə də komanda şəklində yüksək nailiyyətlərinin şahidi oluruq. Üçrəngli bayrağımız beynəlxalq idman arenalarında dalğalanır, xarici ölkələrdə səsləndirilən Dövlət Himnimizin sədaları idmançılarımızın qələbəsinin xəbərçisi olur.

Son illər böyük nüfuzlu beynəlxalq idman oyunlarının ölkəmizdə keçirilməsi də dövlətimizin idmana böyük diqqət və qayğısının bariz nümunəsidir. Bu ali diqqət növbəti dəfə yanvarın 9-da keçirilən ötən ilin idman yekunlarına həsr olunan mərasimdə özünü göstərdi. Tədbirdə iştirak edən Azərbaycan Respublikasının Prezidenti, Milli Olimpiya Komitəsinin Prezidenti İlham Əliyev 2022-ci ildə yüksək nailiyyətlər qazanmış bir qrup idmançıya və idman mütəxəssisinə yeni mənzillərin orderlərini təqdim etdi.

Azərbaycanda idmanın inkişafında olan xidmətlərinə görə mükafatlandırılan idmançılar və idman mütəxəssisləri arasında Müdafiə Nazirliyinin Mərkəzi Ordu İdman Klubunun üzvləri baş leytenant Ağahüseyn Mustafayev və Tayfur Əliyev də vardı.

Qeyd edim ki, 1961-ci ildə təsis edilən Ordu İdman Klubu Azərbaycan Respublikası müstəqilliyini bərpa etdikdən sonra Azərbaycan Respublikası Müdafiə Nazirliyinin tərkibinə verilib və 1993-cü ildən Mərkəzi Ordu İdman Klubu (MOİK) kimi fəaliyyət göstərir. Yarandığı gündən bu günədək şərəfli yol keçən Mərkəzi Ordu İdman Klubunun yetirmələri Olimpiya oyunlarında, həmçinin Dünya və Avropa çempionatlarında iştirak edərək yüksək nailiyyətlər əldə ediblər. Qazanılmış medalların sayına görə MOİK-in adı Gənclər və İdman Nazirliyi tərəfindən həmişə fərqlənən idman klubları sırasında çəkilib. Bir sözlə, klubun yetirmələri beynəlxalq və respublika səviyyəli yarışlarda hər zaman ölkəmizi peşəkar səviyyədə təmsil edir, həmçinin gənclərin vətənpərvərlik hissinin və fiziki hazırlığının yüksəldilməsində müxtəlif idman növləri üzrə fəal iş aparır.

Müdafiə Nazirliyinin Mərkəzi Ordu İdman Klubunda 20 idman növü üzrə fəaliyyət göstərən bölmələrdə bütöv yaş qrupları üzrə məşqlər keçirilir. Azərbaycan milli yığma komandasının əksər üzvləri Mərkəzi Ordu İdman Klubunun təmsilçiləridir. Olimpiya, Dünya, Avropa və başqa beynəlxalq idman yarışlarında qazanılan medalların da bir hissəsi MOİK-in idmançılarına məxsusdur. Həmçinin ölkədə və beynəlxalq səviyyəli yarışlarda uğurlu çıxış edən MOİK-in yetirmələri Bakı-2017 İslam Həmrəyliyi Oyunlarında 1-ci yeri tutan Azərbaycan yığmasının qələbəsində də pay sahibi oldular. Onlar 2-si qızıl, 1-i gümüş və 1-i bürünc olmaqla komandamızın hesabına 4 medal qazandırdılar.

Onu da qeyd edim ki, MOİK 137 üzv ölkəni özündə birləşdirən, Beynəlxalq Olimpiya Komitəsi tərəfindən tanınan Beynəlxalq Hərbi İdman Şurasının (CISM) fəal üzvüdür.

CISM-ə üzv olduğu gündən bu günə kimi, MOİK-in idmançıları 6 dəfə Ümumdünya Hərbi İdman Oyunlarında və Dünya çempionatlarında uğurla çıxış edərək çoxlu sayda qızıl, gümüş və bürünc medallar qazanıblar. Ordu idmançılarının uğurları sırasında 6-cı Ümumdünya Hərbi İdman Oyunlarında 120 ölkə arasında 15-ci yerə layiq görülmələrini misal göstərmək olar. Bunların hamısı ölkəmizdə idmana göstərilən qayğının, respublikamızda yaradılan idman komplekslərinin müasir tələblərə cavab verməsinin bir daha sübutudur.

Dövlət başçısı tərəfindən mükafatlandırılan MOİK-in üzvləri Ağahüseyn Mustafayev və Tayfur Əliyev də bir çox dünya miqyaslı turnirlərdə ölkəmizi layiqincə təmsil edən və Vətənə çox sayda medallar gətirən idmançılarımızdandır. Onları daha yaxından tanımaq və düşüncələrini qələmə almaq üçün MOİK-ə yollandım. İlk həmsöhbətim baş leytenant Ağahüseyn Təbriz oğlu Mustafayev oldu. İdmanın sərbəst güləş növü ilə məşğul olan Ağahüseyn 1989-cu ildə Neftçala rayonunda anadan olub. İdman kariyerasına 2000-ci ildə Respublika Olimpiya İdman Liseyində başlayıb. Artıq 13 ildir MOİK-in təmsilçisidir.

İstər ölkədaxili, istərsə də beynəlxalq turnirlərdə dəfələrlə üçrəngli bayrağımızı ən ucalarda dalğalandıran idmançımız hərbçilər arasında keçirilən Dünya çempionatlarında 2 dəfə qızıl, 2 dəfə gümüş, 2 dəfə bürünc medal qazanıb. Hərbçilərarası Avropa çempionatının və Olimpiadanın da mükafatçısıdır. MOİK idmançısı, həmçinin gənclərarası Avropa və Dünya ikincisi, iki dəfə də böyüklərarası Avropa ikincisi olub. Hal-hazırda idman kariyerasını məşqçi kimi davam etdirən zabit Azərbaycan milli komandasında çimərlik güləşi üzrə məşqçisidir. "Ötən il ərzində çalışdırdığım idmançılarla bir çox nailiyyətlər qazandıq. Tələbələrim yeniyetmələr üzrə Avropa və Dünya çempionatlarının qalibi oldular. Həmçinin komandamız gənclər arasında Dünya ikincisi, Avropa birincisi oldular. Böyüklərdən ibarət komandamız isə Dünya ikincisi oldu. Hər uğurun sonunda ölkəmizin idman şərəfini daha da ucaltdığımız üçün çox sevinirik. Hər qələbədən sonra növbəti turnirlərə daha əzmkarlıqla hazırlaşırıq. Çünki idmançı gərək daim hazırlıqlı olsun. Qələbənin sevincinə qapılıb rahatlaşmaq, məşqləri səngitmək olmaz. Həmin tədbirdə mükafatlandırılan bütün idmançılar kimi, mən də çox sevindim, qürurlandım. İllərdir çəkdiyim əziyyətlərin bəhrəsini gördüm. Cənab Prezident tərəfindən təqdim olunan mənzil hər birimizə göstərilən yüksək qayğının, etimadın bariz sübutu oldu. Həmçinin dövlət başçımızın idmanı və idmançıları daim diqqətdə saxladığının göstəricisi idi. Əminliklə deyə bilərəm ki, hər bir idmançı bu yüksək diqqətdən ruhlanaraq daha uğurlu nailiyyətlər qazanmaq üçün səy göstərəcək. Bir daha Müzəffər Ali Baş Komandanımız İlham Əliyev cənablarına bizə belə yüksək qiymət verdiyi üçün dərin minnətdarlığımı bildirirəm", - dedi baş leytenant Ağahüseyn Mustafayev.




Üç oğul atası olan Ağahüseynin tələbələri arasında oğlu Təbrizin də olduğunu öyrəndim. Təbrizin də atası kimi sayılıb-seçilən idmançılarımızdan olacağına inamımı bildirdim. Zabitimizə xidmətində və idman fəaliyyətlərində də uğurlar arzulayaraq, növbəti idmançı ilə həmsöhbət oldum.

İdmanın boks növü ilə məşğul olan Əliyev Tayfur Nəriman oğlu ata yolunun davamçısıdır. O 1997-ci il yanvarın 1-də Naxçıvan Muxtar Respublikasının Şərur rayonunda anadan olub. Naxçıvan şəhərində Heydər Əliyev adına tam orta məktəbi bitirən Tayfur, Naxçıvan Dövlət Universitetinin Bədən Tərbiyə və İdman fakültəsində bakalavr təhsili alıb. Beş ilə yaxındır MOİK-in idmançısı olan Tayfur əsgəri xidmətini də elə burada keçib. Tokio 2020 Olimpia Oyunlarının iştirakçısı olan Tayfur idman sahəsində ilk addımlarından danışdı. "Boksla məşğul olmağa 2002-ci ildə Naxçıvandakı Dinamo İdman Cəmiyyətində başladım. Atam boks üzrə "Əməkdar məşqçi"dir. Elə idmanın bu növünü seçməyim də onunla bağlıdır. İlk məşqçim də atam olub. O məni həm fiziki, həm taktiki, həm də mənəvi cəhətdən hazırlayırdı. Həmişə deyirdi ki, güclü iradə, güclü yumruq kimidir. İradəli, dözümlü, mübariz olmağı sona qədər inamla döyüşməyi öyrədirdi. Atamın mənə olan sonsuz inamı həmişə ən güclü silahım olub".

Dəfələrlə Azərbaycan çempionu olan Tayfurun gənc olmasına baxmayaraq beynəlxalq arenada da bir çox nailiyyətlər qazandığını öyrəndim. Yeniyetmələrarası Avropa çempionu olan Tayfur, bir dəfə gənclər, bir dəfə də böyüklər arasında Avropa çempionatında gümüş, IV İslam Həmrəyliyi Oyunlarında və Hərbçilərarası Dünya Çempionatında bürünc medal qazanıb. İdman sahəsində göstərdiyi uğurlu fəaliyyətə görə Prezident tərəfindən mənzillə təltif olunan Tayfur sevincini belə dilə gətirdi. "Müstəqil həyata yeni atılan bir gənc üçün mənzil sahibi olmaq ən vacib şərtdir. Altı aydır ki, ailə həyatı qurmuşam və kirayə mənzildə yaşayırdım. Həmişə öz evimin olmağını arzu edirdim. Bu arzumun isə belə tezlikdə reallaşacağına inamım yox idi. Bu, istər-istəməz psixologiyama da mənfi təsir edirdi. Fikirlərimi tam şəkildə məşqlərimə cəmləyə bilmirdim. İndisə bir evim var. Artıq arzularım reallaşdı. Cənab Prezidentimizin bu hədiyyəsinə mən də, ailəm də çox sevindi. Bizə bu sevinci yaşatdığına görə ölkə başçımıza sonsuz təşəkkürümüzü bildiririk. Sağolsun ki, idmançılara, gəncələrə belə yüksək dəyər verir, onların rifah halını daim diqqət mərkəzində saxlayır. Bu il bir çox mühüm turnirlər bizi gözləyir. Yaxşı nailiyyətlər qazanmaq üçün güclü məşq ən birinci şərtdir. Cənab Prezidentimizin mükafatlandırması hər birimizə ruh yüksəkliyi, möhkəm iradə aşılayaraq, gələcək yarışlara yüksək səviyyədə hazırlaşmağımıza böyük stimul oldu. Bu inamı və etimadı yeni-yeni nailiyyətlərimizlə, qələbələrimizlə doğrultmaq üçün gecəmizi gündüzümüzə qatıb məşqlərimizi əzmkarlıqla davam etdirəcəyik".

Ağahüseyn və Tayfur kimi bir qrup idmançıya və idman mütəxəssislərinə mənzillərin hədiyyə olunması və həmin tədbirdə Prezidentin dediyi "Yeni uğurlar, yeni qələbələr, Azərbaycan dövləti hər zaman sizin yanınızda olacaq. Sizin uğurlarınıza bütün xalqımız sevinir, bütün uğurlar yüksək səviyyədə qiymətləndirilir və qiymətləndiriləcəkdir" sözləri müxtəlif arenalarda ölkəmizi layiqincə təmsil edən, nailiyyətlər qazanan hər kəsin dövlətimiz tərəfindən diqqətdə saxlanıldığının bir daha bariz göstəricisidir.

**Baş leytenant**
**Mahmud MÖHBALIYEV**
**"Azərbaycan Ordusu"**

*Tarix yazan oğullar*

# Ataların yolu oğullara örnəkdir

*Hüseyn Qasımzadə vətənpərvər ailədə doğulub böyümüşdü. Qəlbindəki Vətən, torpaq sevgisini atası Həsənxan müəllimdən almışdı. Həsənxan müəllim Birinci Qarabağ müharibəsinin veteranıdır. Azərbaycan Ordusunun yenicə formalaşdığı dövrdə və erməni işğalçılarının tarixi ərazilərimizə qarşı apardığı haqsız torpaq iddialarına qarşı çıxaraq könüllü döyüşən cəbhəyə yollanmışdı. Döyüş bölgəsində yerləşən "N" hərbi hissəsinin zabiti olaraq dörd il erməni quldurlarına qarşı müxtəlif istiqamətlərdə döyüşmüşdü. Bax, belə bir vətənsevər, torpaqsevər ailənin övladı idi Hüseyn. Ölkə üçün, cəmiyyət üçün sağlam düşüncəli vətəndaşın yetişməsində ailə mühitinin böyük rol oynadığını hər birimiz çox gözəl bilirik.*



2019-cu ilin iyulunda hərbi xidmətə gedən Hüseyn ilkin hərbi vərdişlərə dərindən yiyələnərək Hərbi Andı qəbul etdi, Azərbaycan Ordusunun sıralarına daxil oldu. Hərbi xidməti dövründə daima öz üzərində çalışdı, hazırlıqlarını artırdı, xüsusilə fiziki cəhətdən daha da möhkəm olması üçün idmana böyük önəm verdi. Hələ orta məktəb illərində peşəkar boksla məşğul olması və bu sahədə qazandığı təcrübə Hüseynin hərbi xidmət zamanı fiziki hazırlığında böyük rol oynadı. O bilirdi ki, fiziki cəhətdən hazırlıqlı əsgər döyüş hazırlığında da çətinlik çəkməyəcək.

Komandirlərinin, əsgər yoldaşlarının hörmətini qazanan manqa komandiri kiçik çavuş Hüseyn Qasımzadə o vaxt Tərtərdə yerləşən ön xətt bölmələrimizdən birində xidmət edirdi. Vətən müharibəsi zamanı döyüşlərə də cəbhənin bu istiqamətindən - xidmət etdiyi hərbi hissənin şəxsi heyəti ilə birlikdə qatılmışdı. Döyüşən qüvvələrin tərkibində rəhbərlik etdiyi manqa ilə birlikdə düşmənin illərlə möhkəmləndirdiyi mövqelərinin darmadağın edilməsində şücaət göstərirdilər. Vətənpərvər ruhda böyüyən gənc döyüşçü Hüseyn Qasımzadə oktyabrın 31-də torpaqlarımızın azadlığı uğrunda gedən döyüş əməliyyatları zamanı şəhid oldu. Doğulub-böyüdüyü Cəlilabad rayonunda dəfn olundu. Hərbi xidmətini başa vurmasına iki ay qalmış şəhidlik zirvəsinə ucalan Hüseyn 19 yaşında nəinki elinin, obasının, bütün Azərbaycanın fəxrinə çevrildi. O, 19 yaşında Vətən müharibəsinin ən gənc iştirakçılarından biri oldu.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin müvafiq sərəncamları ilə Qasımzadə Hüseyn Həsənxan oğlu Vətən müharibəsində göstərdiyi şəxsi şücaətə görə, "Suqovuşanın azad olunmasına görə", "Cəsur döyüşçü", "Vətən uğrunda" medallarına layiq görülüb.

Qasımzadə Hüseyn Həsənxan oğlu 2001-ci il iyulun 8-də Cəlilabad rayon Sərhədabad kəndində dünyaya göz açmışdı. Şəhidin valideynləri Həsənxan müəllim və Təranə xanım ailədə dörd övlad böyüdüb boya-başa çatdırıblar. Onlar həmişə övladları ilə fəxr ediblər. Qızları Pərvanə, Sədəf, oğlanları Hüseyn və Coşqun Cəlilabad rayon 2 nömrəli tam orta məktəbin nizam-intizamlı, fəal şagirdlərindən olublar. 19 yaşlı Hüseyn təkcə ailədən deyil, həm də təhsil ocağında müəllimlərindən vətənpərvərlik, qorxmazlıq, cəsurluq dərsini almışdı. Qardaşı Coşqun bu gün hərbi tibb sahəsi üzrə təhsil alır.

Vətən sevgisini ürəyində gəzdirib şəhidlik zirvəsinə ucalan Hüseyn və onun timsalında bütün şəhidlərə Allahdan rəhmət diləyir, valideynlərə sonsuz səbir arzu edirik.

**Lalə HÜSEYNOVA**
**"Azərbaycan Ordusu"**



# Adını Qızılqayaya əbədi həkk etdirən qəhrəman

Daha bir qəhrəmanın sorağıyla yola çıxırıq. Yol qısa, söhbət uzun. Qapıya bayraq sancılıb. O bayraq ki, al rəngini Elnur kimi igidlərimizin qanından götürüb. Bu gün qürurla dalğalanır. Haqqı var qürurlanmağa. O dalğalansın deyə neçə-neçə igidlər can verib. O dalğalansın deyə igidlərimiz dağlarda məskən salıb, Vətənin müdafiəsində dayanıb. Şəhid ailələrinə təhvil verilən bayraqlar bu gün qiymətli bir sərvət kimi mənzillərinin ən gözəl guşəsində yer alıb. Müqəddəs zirvəyə ucalan igidlərimizin özlərindən sonra geriyə buraxdıqları üçrəngli bayrağımızdır, bir də fotoları. O yadigarlarda qəhrəmanların gənc və gələcək nəsillərə örnək olacaq şərəfli döyüş yolunun izi var. O izin sorağıyla Zeynalovlar ailəsinin qapısını döyürük. Qapını ailənin sonbeşik övladı Ruslan Zeynalov açır. Qəhrəmanın ailəsi ilə tanış oluruq. Sadə və zəhmətkeş ailənin ilk övladı olan Elnur 1994-cü ildə Naxçıvan şəhərində anadan olub. 14 nömrəli məktəbdə təhsilə başlayan Elnur 2008-ci ildə sənədlərini Heydər Əliyev adına Hərbi Liseyə verib və imtahandan müvəffəqiyyətlə keçib. Atası Elsevər Zeynalov qeyd edir ki, bizə liseyə qəbul olduqdan sonra xəbər verib: "Özü sevərək seçdi bu peşəni. Biz də onun seçiminə hörmət etdik, dəstək olduq".

2015-ci ildə Heydər Əliyev adına Azərbaycan Ali Hərbi Məktəbini (indiki Heydər Əliyev adına Hərbi İnstitut) bitirən Elnur Zeynalov xidmətinə "N" saylı hərbi hissədə başlayır. 5 il taqım komandiri kimi xidmət edir, xidməti dövründə Aprel döyüşlərinin də iştirakçısı olur. 2018-ci ildə "baş leytenant" hərbi rütbəsinə layiq görülür. Həmin ili Xüsusi təyinatlı kursa yazılır və kursu müvəffəqiyyətlə bitirir. Xidməti dövründə bir çox kurslarda iştirak edir. 2020-ci ilin iyununda təyinatı üzrə Azərbaycan Respublikası Hərbi Dəniz Qüvvələrinin Xüsusi Təyinatlı Dəstəsində xidmətinə davam edir.

"Otağın birini boşaltdıq, təmir elədik. Arzularımız vardı, Elnura toy edəcək, xoş günlərini görəcəkdik. Lakin Elnur o otağı şərəfli döyüş yolu ilə özünün xatirə otağına çevirdi", - anası Məlahət xanım söhbətə qatılır. "Hələ 4-cü sinifdə oxuyurdu. Evə gəldim ki, barmağını yaralayıb. Taxtadan tapança düzəldirmiş ki, bəs bununla düşmənləri öldürəcəm. Uşaqlıqdan düşmənə nifrət ruhunda böyüdü. Elə bu ruh onun peşə seçiminə təsir etdi. Hərb peşəsi sanki boyuna biçilmişdi".

Ananın oğlundan qürurla danışması bir igidin qəhrəmanlığını vəsf edir. Bu arada atanın oğlunun otağına keçib şəkillərinin önündə səssizcə dayanması gözümüzdən yayınmır. Oğul itkisi ağır olsa da, istənilən halda ata öz qəhrəman oğlu ilə fəxr edir.

Qardaşı Ruslan deyir ki, döyüş yoldaşları Elnur haqqında hər dəfə ürəkdolusu danışırlar. "Elnur 2020-ci ilin 27 sentyabrdan başlayan Vətən müharibəsinin ilk günlərindən döyüş meydanında olur. O, Füzuli, Cəbrayıl, Qubadlı, Xocavənd rayonlarının düşməndən azad olunması uğrunda gedən döyüşlərdə, Araz çayı boyu döyüş əməliyyatlarında iştirak edir. İcra edilən tapşırıqlardan biri Xocavənd rayonu ərazisində strateji yüksəklik olan Qızılqaya yüksəkliyinin azad olunması olur. Bu yüksəklikdə düşmən alayının idarəetmə məntəqəsi və alayın heyəti var idi. Ora çatan xüsusi təyinatlılar iki qrupla sızma hücum əməliyyatı həyata keçirir.

Qızılqayanın ilk səngərinə 20 metr qalmış duyuq düşən düşmən atəş açmağa başlayır. Sayca çox olan düşmənlə qızğın döyüş gedir. Əməliyyat elə icra edilir ki, düşmənin qaçmağa macalı olmur. Ərazi düşməndən təmizlənir və Azərbaycan bayrağı qaldırılır. Qızılqaya yüksəkliyinin nəzarətə götürülməsində yüksək peşəkarlıq göstərən Elnur Zeynalov şəhadətə yüksəlir".

"Mən bu gün alnıaçıq camaatın qarşısına çıxa bilirəm. Çünki oğlum ona göstərilən etimadı doğrultdu. Düzdür, bəzən deyirlər ki, döyüşçünün işi döyüşməkdir. Yəni, hər kəsin bir peşəsi var. Lakin gəlin görək, hər kəsin öz peşəsinə yanaşması eynidirmi? Çətindir, amma qürurvericidir. Oğlum içdiyi Hərbi anda sadiq qaldı, son damla qanınadək döyüşdü. Mən fəxr edirəm ki, belə bir qəhrəmanın anasıyam", - Məlahət ana deyir. "Elə bilirəm, yenə hardasa təlimdədir. Sonuncu dəfə 2019-cu ilin fevralında gəlmişdi evə. Son danışığımız isə şəhid olduğu gün 31 oktyabrda oldu".



Baş leytenant Elnur Zeynalovun xatirə otağına keçirik. Ana danışır, dinləyirəm, qəhrəmanın şəkilləri ilə üz-üzə dayanmışam. Saçları qış fəslinin rənginə boyanmış Məlahət ana deyir ki, istəmirəm, şəhidlər unudulsun. Bizim şəhid analarının təsəllisi də budur, qızım...

Bu qaraqaş, qaragöz, sərt baxışlı əsl Azərbaycan kişisini, əsl zabit duruşlu igidi necə unuda bilərik axı, ay ana?! "Qarabağ" ordeni, "Vətən uğrunda", "Cəbrayılın azad olunmasına görə", "Füzulinin azad olunmasına görə", "Xocavəndin azad olunmasına görə", "Qubadlının azad olunmasına görə" medalları ilə təltif olunan, gənc yaşında həyatından, gələcəyindən keçən, ömrünü bu torpağa qurban edən qəhrəmanı necə unutmaq olar? Əlimizə qələm alıb başqa sahələrdən yazanda, o yazılar içində igidlərimizin şərəfli döyüş yolundan bəhs edən yazılar da mütləq yer alır. Şair nə gözəl demiş:

*İnamsız bir qartalın*
*qanadları gərilməz,*
*Döyüşsüz azadlığın*
*meyvələri dərilməz,*
*Şəhidsiz bir millətin*
*Vətən ruhu dirilməz,*
*Oğullar ola-ola,*
*necə deyim mərdim yox.*
*Ordum varsa, yurdum var,*
*Ordum yoxsa, yurdum yox!*

**Ruhiyyə RƏSULOVA**
**Naxçıvan televiziyasının baş redaktoru**

# Azərbaycan Ordusunun şəxsi heyəti ilə keçirilən ictimai-siyasi hazırlıq dərsi

## (İctimai-siyasi hazırlıq dərsinin qrup rəhbərinə kömək)

**Mövzu:** Azərbaycan Respublikası rəhbərliyinin ölkənin müdafiə qüdrətinin yüksəldilməsi istiqamətindəki fəaliyyəti. Hərbi hissə və birləşmələrin əsas vəzifələri

**Suallar:**

**1. Azərbaycan Respublikası rəhbərliyinin ölkənin müdafiə qüdrətinin yüksəldilməsi istiqamətindəki fəaliyyəti.**

**2. Hərbi hissə və birləşmələrin əsas vəzifələri.**

### Azərbaycan Respublikası rəhbərliyinin ölkənin müdafiə qüdrətinin yüksəldilməsi istiqamətindəki fəaliyyəti

Müstəqil Azərbaycan dövlətinin qurucusu Ulu Öndər Heydər Əliyevin ideyaları əsasında tərəqqi yolunda inamla addımlayan dövlətimiz hazırda iqtisadi, sosial, siyasi və mədəni həyatında böyük təkamül yolunu inamla keçərək sabit, təhlükəsiz və müasir həyat səviyyəsini təmin etmiş ölkə kimi dünyada tanındı. Ölkənin beynəlxalq nüfuzu əhəmiyyətli dərəcədə artmış, cəmiyyətdə dövlətçilik ənənələri güclənmiş, müasir sosial-iqtisadi infrastruktur quruculuğu uğurla həyata keçirilmişdir. Öz tarixi ərazi bütövlüyünü təmin etməklə ölkəmiz yeni qlobal reallıqlar fonunda növbəti və daha böyük transformasiya astanasına keçid edir.

Azərbaycan Respublikası dünya miqyasında sabit və dayanıqlı iqtisadiyyatı, eləcə də böyük maliyyə resursları olan, mühüm geosiyasi və geoiqtisadi mövqe tutan, qlobal enerji təhlükəsizliyinin təminatında strateji rol oynayan dövlətə çevrilmişdir. Artan iqtisadi güc və beynəlxalq nüfuz Azərbaycan Respublikasına Cənubi Qafqazın və ətraf regionların iqtisadiyyatlarının mənzərəsini dəyişdirməyə qadir olan iri layihələrin təşəbbüskarı kimi çıxış etmək imkanı yaratmışdır. Bu layihələrin uğurla həyata keçirilməsi ölkəmizin regionda proseslərin inkişaf istiqamətini müəyyən edən və dünya iqtisadiyyatında söz sahibi olan "qlobal oyunçu" statusunu təmin etmişdir.

Azərbaycan Respublikası beynəlxalq aləmdə güclü bir iqtisadiyyata malik bir ölkə kimi tanınmaqla yanaşı, həm də NATO standartlarına uyğunlaşmış modern bir ordusunun olması ilə də diqqəti cəlb edir. Ordu dövlətin təməl prinsiplərindən biri, təhlükəsizliyin əsas təminatçısıdır. Sabitlik, dinamik inkişaf və güclü ordu quruculuğu müasir Azərbaycan üçün əsas xarakterik cəhətlərdir və bu cəhətlər bir-birinə sıx bağlıdır. Bir mərkəzdən idarə olunan, vahid komandanlığa tabe olan, müasir hərb elminin tələblərinə cavab verən Azərbaycan Silahlı Qüvvələri Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyevin başladığı və Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyevin uğurla davam etdirdiyi müdrik siyasəti nəticəsində gündən-günə daha da möhkəmlənir, döyüş qabiliyyətini artırır.

Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyevin müstəqil dövlət quruculuğunun bütün sahələri kimi, ordu quruculuğu sahəsində də uğurla keçirilən siyasət nəticəsində Azərbaycan Ordusu yalnız bölgədə deyil, dünyanın inkişaf etmiş orduları arasında özünə layiqli yer tutub. Qoşunların maddi-texniki bazasının davamlı olaraq təkmilləşdirilməsi, döyüş hazırlığının real döyüş vəziyyətinə daha da yaxınlaşdırılması, Silahlı Qüvvələrdə mənəvi-əhval ruhiyyənin sağlamlaşdırılması, ordunun milli kadr hazırlığının uğurla davam etdirilməsi, ordunun struktur islahatlarının onun qarşısında duran vəzifələrə uyğun aparılması, nizam-intizamın gücləndirilməsi, şəxsi heyətə sosial qayğının daim diqqət mərkəzində saxlanması Azərbaycan Ordusunun daha da güclənməsinə imkan yaradıb. Yüksək kadr potensialı və geniş maddi-texniki bazası olan yerli hərbi məktəblərlə yanaşı, hərbçilərimiz bir sıra vacib ixtisaslar üzrə təhsil almaq üçün Türkiyə, Rusiya, Ukrayna, Pakistan və digər ölkələrə göndərilir. Eyni zamanda, Azərbaycan hərbçiləri NATO-nun "Sülh Naminə Tərəfdaşlıq" proqramı çərçivəsində təşkil olunan müxtəlif ixtisasartırma və təlim kurslarında da yaxından iştirak edirlər. Azərbaycanın NATO ilə əlaqələri artıq "Fərdi Tərəfdaşlığın Fəaliyyət Planı" çərçivəsində inkişaf edir. Bu isə ordu quruculuğu prosesində növbəti nailiyyətlərin qazanılması üçün möhkəm təməl deməkdir.

Azərbaycan Respublikasının müdafiə sisteminin gücləndirilməsi, Silahlı Qüvvələrin tərkibində olan bütün qoşunlarda həyata keçirilən islahatlar Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyevin öz vədinə sadiqliyini təsdiq edir. Bu illərdə Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyevin xüsusi nəzarəti tapşırıqları, göstərişləri və təşəbbüsləri ilə təhlükəsizlik siyasətini həyata keçirən və bu istiqamətdə praktik fəaliyyət göstərən strukturlardan ilk növbədə ordunun yüksək döyüş hazırlığı səviyyəsinə gətirilməsi üçün gərgin, səmərəli, məqsədyönlü iş aparılmışdır. Azərbaycanın maliyyə imkanlarının artması nəticəsində Silahlı Qüvvələrin tərkibindəki bütün qoşunların döyüş imkanlarının artırılması və ən müasir tələblər səviyyəsinə çatdırılması üçün qabaqcıl dövlətlərlə uğurlu əməkdaşlıq həyata keçirildi. Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyevin məqsədyönlü fəaliyyəti nəticəsində Azərbaycan Ordusu arsenalını modern silah və hərbi texnika ilə zənginləşdirir, müasir döyüş imkanlarını uğurla mənimsəyir. 44 günlük Vətən müharibəsi ordumuzun qüdrəti barədə söylənənlərin təsdiqi oldu. Ağdam şəhərinin və rayonun 9 kəndinin Qarabağ ərazisində yerləşən qeyri-qanuni erməni silahlı dəstələrinin vizual nəzarətindən çıxması ilə nəticələnən Fərrux əməliyyatı, Azərbaycan Ordusunun bölmələrinə qarşı törədilən terror təxribatlarına qarşı keçirilən "Qisas" əməliyyatı ordumuzun gücünü bir daha bütün dünyaya sübut etdi. Beləliklə, Müzəffər Ali Baş Komandan cənab İlham Əliyevin yenilməz siyasi iradə və qətiyyəti, ordumuzun gücü və xalqımızın öz rəhbəri ətrafında bir amal uğrunda səfərbərliyi Azərbaycan Respublikasının parlaq qələbəsini şərtləndirən əsas amillərdən oldu. Ordumuz döyüş meydanındakı əməliyyatları ilə dünyanın hərb tarixində yeni nümunələr yaratdı. Silahlı Qüvvələrimizin ötən son 20 ildə Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyevin xüsusi diqqəti altında həyata keçirilən hərbi siyasətin səmərəliliyi döyüş meydanında təcəssümünü tapdı.

Təbii ki, Azərbaycan hərbi potensialını genişləndirmək üçün özünün sürətlə artan iqtisadi imkanlarından hərtərəfli şəkildə bəhrələnməlidir və bu iş lazımi səviyyədə həyata keçirilməkdədir. Bu gün ən müasir silah-sursat, daha çox yüksək dəqiqliyə malik olan silahlar alınır və müasirləşmə prosesi daim aparılır. Görülən bütün işlərlə yanaşı, Azərbaycanda hərbi sənaye də çox sürətlə inkişaf edir. Bu sahəyə də böyük vəsait ayrılır, xüsusi diqqət göstərilir. Azərbaycanda yerli hərbi sənayenin yeni dövrü başlayır. Artıq Müdafiə Sənayesi Nazirliyində müxtəlif hərbi təyinatlı silah-sursat istehsal olunur və proses davam etdirilir. Öz tələbatımızı maksimum təmin etməklə yanaşı hazırda 30-dan çox ölkəyə hərbi təyinatlı məhsul satırıq. Məhz bu uğurlu siyasət nəticəsində Müdafiə Sənayesi Nazirliyində müdafiə təyinatlı məmulatların istehsalının həyata keçirilməsi ölkəmizin hərbi qüdrətinin artmasının mühüm göstəricilərindən biridir.

### Hərbi hissə və birləşmələrin əsas vəzifələri

Azərbaycanda ordu quruculuğu dövlət səviyyəsində, dövlətin yaxından iştirakı və qayğısı ilə aparılmaqdadır. Bu iş şəxsən Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyevin rəhbərliyi və nəzarəti altında həyata keçirilir. Dünyanın inkişaf etmiş ölkələrinin hərbi quruculuq təcrübəsi öyrənilir və müasir tələblərə cavab verən ordu yaratmaq istiqamətində işlər aparılır. Azərbaycan Ordusu yeni inkişaf mərhələsinə qədəm qoyub və yüksək hərbi intizamın saxlanılması üçün müvafiq tədbirlər görülərək islahatlar aparılır.

Bu gün iqtisadi yüksəlişi ilə diqqətləri özünə cəlb edən ölkəmiz yaradılmış qüdrətli ordusu ilə də hər bir azərbaycanlının qürur mənbəyinə çevrilib. Bütün dünya Cənubi Qafqazın lider dövləti olan Azərbaycanın regionun ən qüdrətli ordusuna malik olduğunu təsdiq edir. İşğaldan azad edilmiş ərazilərdə hərbi hissələrin müasir standartlara uyğun qurulması, şəxsi heyətin həyat və məişət şəraitinin yaxşılaşdırılması, müasir silahlarla təminatı istiqamətində görülən işlər sayəsində Azərbaycan Ordusu dünyanın ən güclü orduları ilə bir cərgədə öz layiqli yerini tutub.

Azərbaycan Ordusu ölkəmizin ərazi bütövlüyünün bərpası uğrunda apardığı uğurlu əməliyyatlar bir daha sübut edir ki, ordu quruculuğu istiqamətində aparılan dövlət siyasəti Azərbaycan Ordusunun möhkəmlənməsi və peşəkarlığına xidmət edir. Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyev öz çıxışlarında dəfələrlə vurğulayıb ki, ordu quruculuğu, müdafiə potensialının möhkəmlənməsi və güclü ordunun yaranması dövlət üçün, hökumət üçün və hər bir vətəndaş üçün bir nömrəli vəzifədir. Biz bu istiqamətdə səylərimizi davam etdirərək, hər an dövlətimizin müstəqilliyini qorumağa hazır olmalıyıq. Ordumuzun gücünü artıran, hərbçilərimizin döyüş əhval-ruhiyyəsini yüksəldən əsas amillərdən biri də Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyevin hərbi hissələrə, xüsusən də işğaldan azad edilmiş ərazilərə ardıcıl səfərlər etməsi və hərbi qulluqçularla görüşməsidir. Bu görüşlərdə hərbi qulluqçulara sonsuz mübarizə əzmi aşılayan Ali Baş Komandan bununla da orduya diqqət və qayğısını əyani şəkildə nümayiş etdirir.

Dövlətimizin regionda müstəqil siyasət apara bilməsi üçün yüksək döyüş hazırlıqlı ordusu olmalıdır. Yaranmış hərbi-siyasi vəziyyət Azərbaycan Ordusunun hissə və birləşmələrinin daim döyüş hazırlıqlı, Azərbaycanın müstəqilliyinə və ərazi bütövlüyünə qarşı yönəldilən hər bir təcavüzə, antiterror əməliyyatına layiqli cavab verməyə qadir olmağı tələb edir. Bunun üçün isə Azərbaycan Ordusunun qarşısında 2023-cü tədris ilində aşağıdakı əsas vəzifələr qoyulmuşdur.

- 2023-cü tədris ilində döyüş və mənəvi-psixoloji hazırlıqda əldə olunmuş nəticələrlə kifayətlənməmək, döyüş hazırlığını daha da təkmilləşdirmək, şəxsi heyətin döyüş ruhunu yüksək səviyyədə saxlamaq;
- şəxsi heyətin Azərbaycan xalqına, dövlətinə və Prezidentinə sədaqətli olmaq, respublikanın suverenliyinin, ərazi bütövlüyünün və dövlətçiliyinin müdafiəsi üçün şəxsi məsuliyyət, hərbi yoldaşlıq, dostluq və qardaşlıq, hərbi hissəsinin döyüş ənənələrinə hörmət, hərbi borcu şüurlu surətdə yerinə yetirmək və Döyüş bayrağına sədaqət ruhunda tərbiyə etmək;
- Azərbaycan Ordusunun nüfuzunu artırmaq, hərbi qulluqçuları yüksək vətənpərvərlik təfəkkürünün, şəxsi heyətin azərbaycançılıq, Vətəninə, Hərbi anda və xalqına sədaqət ruhunda tərbiyə etdirmək, hərbi qulluqçularda Azərbaycan xalqının tarixinə, milli adət və ənənələrinə dərin hörmətlə yanaşma tərzinin, Konstitusiyaya və vətəndaşlıq borcunun yerinə yetirilməsinə, yüksək döyüş və mənəvi-psixoloji keyfiyyətlərinin formalaşdırmaq.

Bu gün Azərbaycan Ordusunun qarşısında respublikanın suverenliyini, ərazi bütövlüyünü və dövlətçiliyin müdafiəsini ayıq-sayıq qorumaq vəzifəsi durur. Hər bir hərbi qulluqçu dərk etməlidir ki, o öz vəzifə borcunu vicdanla yerinə yetirməklə, döyüş və ictimai-siyasi hazırlıq dərslərində, təlimlərdə, hərbi biliklərə dərindən yiyələnməklə, mənəvi-psixoloji və fiziki hazırlığını artırmaqla, intizamlı olmaqla Azərbaycan Ordusunu inkişafın yeni bir səviyyəsinə yüksəldəcək.

***Qeyd:*** *İctimai-siyasi hazırlıq qrupunun rəhbəri mövzunu şərh edərkən hərbi hissənin, öz bölməsinin 2022-ci tədris ilində döyüş və ictimai-siyasi hazırlığında qazandağı nəticələri bir daha dinləyicilərin nəzərinə çatdırmalı, 2023-cü tədris ilində hərbi hissənin, bölmənin qarşısına qoyulmuş tapşırıqların çatdırılmasına və izah edilməsinə xüsusi diqqət yetirməlidir.*

**İdeoloji İş və Mənəvi-Psixoloji Təminat İdarəsi**

*Medallı igidlərimiz*

# Öncə Vətəndir!

Ali Baş Komandanın sərkərdəliyi ilə Azərbaycan Ordusu İkinci Qarabağ müharibəsində şanlı qələbə qazandı, torpaqlarımız işğaldan azad edildi. Ordumuz İkinci Qarabağ müharibəsini dünya hərb tarixinə yeni dövrün müharibəsi kimi tarixləşdirdi. Prezident İlham Əliyev 2021-ci il martın 20-də Şuşada xalqa etdiyi müraciətində dedi: "Bizim müharibəmiz - İkinci Qarabağ müharibəsi bu gün dünyanın aparıcı ölkələrinin hərbi məktəblərində öyrənilir. Biz XXI əsrin müharibəsini aparmışıq, düşməni məhv etmişik. Erməni ordusu yoxdur, biz onu məhv etmişik".

Hərbçilərimizin göstərdiyi mərdlik, şücaət, yüksək peşəkarlıq dünyanın hərbi ekspertlərinin diqqətini çəkdi. Vətən müharibəsinin iştirakçıları ilə qürur duyur, şəhidlərə böyük ehtiram göstərirlər.

Vətən müharibəsində cəsarəti ilə fərqlənən mayor Nicat Tağıyev işğaldan azad olunmuş ərazilərimizdə yerləşən hərbi hissələrdən birində xidmət edir. Əsgərlər mayor Nicat Tağıyev haqda xoş sözlər dedilər. Onun haqqında deyilən: "Ata-oğul münasibəti bəsləyir", "savadlı zabitdi", "tələbkar olduğu qədər ədalətlidir" fikirlər Azərbaycan zabitinin obrazını ifadə edir.

Mayor Nicat Tağıyev də yeniyetməliyindən hərbçi olmaq istəyib.

"Hər şeydən öncə Vətən" - kiçik yaşlarımdan bu şüarı eşidirəm. Evdə ata-anam, küçədə əmi-dayı, qonşular, məktəbdə müəllimlərdən bizə aşılanan vətənpərvərliyin davamı olub bu kəlmə. Mən də bu sözlərin mahiyyətini hər dəqiqə daha çox anlayırdım. O zamanlar hərbçi olacağıma, xalqıma, millətimə layiqincə xidmət edəcəyimə söz vermişdim. Bu gün fəxrlə deyə bilərəm ki, mən Azərbaycan Ordusu-



nun zabitiyəm. Mən Vətən müharibəsinin iştirakçısıyam", - deyə zabit bildirdi.

Mayor N.Tağıyev Ağdam istiqamətində gedən döyüşlərdə iştirak edib. Qələbədən sonra Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin müvafiq sərəncamları ilə "Ağdamın azad olunmasına görə", "Cəsur döyüşçü" və "Vətən müharibəsi iştirakçısı" medallarına layiq görülüb.

"Ordumuzda peşəkar hərbçi kadrlar hazırlanır, ordunun təchizatı daim artır, yeni növ silahlar əlavə edilir. Şəxsi heyət hər zaman döyüşə hazırdır. Ağdam istiqamətində döyüşlər gedirdi. Məni şəxsi heyətimlə birlikdə ora göndərdilər. Düşmənin canlı qüvvəsini darmadağın etdik, texnikasının çoxunu sıradan çıxartdıq. Tabeçiliyimdə olan əsgərlərin döyüş ruhunu yüksəltmək üçün mən də digər komandirlər kimi deyirdim: "Hər şeydən öncə Vətən!". Biz inanırdıq ki, Zəfər qazanacağıq. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin xalqa müraciətində dediyi "Heç bir qüvvə bizi dayandıra bilməz" fikri bizim də qələbə ruhumuzu coşdurdu.

Fəxrlə deyə bilərəm ki, Vətənimizin keşiyində layiqincə durmuşuq. İllər keçsə belə, Zəfərimizdən hələ çox danışılacaq", - deyə zabit bildirdi.

Zabit fikirlərini "Öncə Vətəndir!" qətiyyəti ilə tamamladı...

**Leytenant**
**Elvin VƏTƏNDUST**
**"Azərbaycan Ordusu"**

# Dövlət quruculuğunda Azərbaycan qadınının əməyi hər zaman yüksəkdir

Müdafiə Nazirliyinin Şəxsi Heyət Baş İdarəsinin Qadınlar və Hərbi Qulluqçuların Ailələri ilə İş üzrə şöbəsinin əməkdaşları tərəfindən Azərbaycan Ordusunda xidmət edən qadın hərbi qulluqçularla və mülki qadın işçilərlə mütəmadi olaraq görüşlər keçirilir, onlarla maarifləndirici söhbətlər aparılır. Belə görüşlərdən biri bu günlərdə Hərbi Hava Qüvvələrinin "N" hərbi hissəsində qadın hərbi qulluqçular və mülki qadın işçilərlə keçirildi.

Əvvəlcə xalqımızın Ümummilli Lideri Heydər Əliyevin və Azərbaycanın suverenliyi, müstəqilliyi uğrunda canından keçən şəhidlərimizin xatirəsi bir dəqiqəlik sükutla yad olundu. Azərbaycan Respublikasının Dövlət Himni səsləndirildi.

Şəxsi Heyət Baş İdarəsinin Qadınlar və Hərbi Qulluqçuların Ailələri ilə İş üzrə şöbəsinin müdiri Zümrüd Səmədova çıxış edərək bildirdi ki, belə görüşlərin keçirilməsində əsas məqsəd orduda aidiyyəti üzrə maarifləndirmə işlərinin daha da gücləndirilməsi, mənəvi-psixoloji hazırlığın yüksəldilməsi və milli-mənəvi dəyərlərimizin təbliğidir. "Qadın anadır. Azərbaycan cəmiyyətini qadınlarsız təsəvvür etmək mümkün deyil. Ölkəmizdə bütün sahələrdə qadınlarımız fəal şəkildə çalışırlar. Onların əməyi dövlətimiz tərəfindən hər zaman yüksək qiymətləndirilir. Dünyada qəbul olunmuş gender bərabərliyi Azərbaycan Ordusunda da geniş təbliğ, təşviq edilir və əsas amil kimi bu istiqamətdə işlər həyata keçirilir. Ulu Öndər respublikamıza rəhbərliyinin bütün dövrlərində dövlət quruculuğunda Azərbaycan qadınlarının yeri və mövqeyini hər zaman yüksək tutmuş, bu sahədə məsələlərin həllinə böyük önəm vermişdir. Bu gün Azərbaycan cəmiyyətində qadınlarımızın rolu və yeri istiqamətində Ümummilli Lider Heydər Əliyevin müəyyənləşdirdiyi siyasi kursu Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev uğurla davam etdirir. Azərbaycanda qadınların hüquqlarının etibarlı müdafiəçisinə çevrilən və onların cəmiyyətdə layiqli yerinin təmin olunmasına çalışan Birinci vitse-prezident Mehriban xanım Əliyevanın bu hərəkatda misilsiz xidmətləri vardır. Respublikamızda hər zaman qadın hüquqları etibarlı şəkildə qorunur, yüksək səviyyədə müdafiə olunur. Dövlət quruculuğunda Azərbaycan qadınının əməyi hər zaman yüksəkdir".

Görüş iştirakçıları ilə Azərbaycan Ordusunda milli-mənəvi dəyərlərimizin qorunması, insan hüquqları, gender bərabərliyi və bu gün aktuallığı ilə seçilən müxtəlif mövzularda geniş söhbətlər aparıldı, maraqlı diskussiyalar keçirildi.

**Lalə HÜSEYNOVA**
**"Azərbaycan Ordusu"**

*Əsgərin tribunası*

# Müqəddəslik işığında xidmət edirik

Mənim üçün də əsgər adı həmişə müqəddəs olub. Atam Pənah Məmmədov zabit olduğuna görə demək olar ki, uşaqlığım hərbi şəhərciklərdə keçib. Ölkənin müxtəlif bölgələrində yaşamışıq. Hərbi formaya, hərbi xidmətə böyük sevgi ilə böyümüşəm. Kiçik yaşlarımdan hərbi hissələrdə keçirilən müxtəlif tədbirlərdə iştirak edirdim. Mənim üçün ən yaddaqalan gənc əsgərlərin andiçmə mərasimləri idi. Gənc əsgərlər bu mərasimlərdə təntənəli surətdə Vətənə sədaqət andı içirdilər. Onların səsini eşitdikcə, yerişlərini gördükcə qürurlanırdım. Mən də tez böyüyüb Vətənə əsgər olmaq, mən də Hərbi Andı qəbul etmək istəyirdim.

Hərbi xidmətlə yanaşı elmə, təhsilə də böyük marağım vardı. Dərslərimi yaxşı oxuyurdum. Müəllimlər biliyimi yüksək qiymətləndirirdi. Ali təhsil almaq istəyirdim. 2018-ci il-



də Zərifə Əliyeva adına liseyi bitirəndən sonra sənədlərimi Qərb Universitetinə verdim. İmtahanlardan uğurla keçdim, ali məktəb tələbəsi oldum, politologiya ixtisasına yiyələndim. Oranı 2022-ci ildə bitirdim. Sonra magistraturaya qəbul olsam da, təhsilimi dayandırıb əsgəri xidmətə gəldim - hərbi xidmət keçmək mənim üçün daha önəmlidir, bilirdim. Təhsilimi xidmətdən sonra davam etdirəcəkdim.

Hərbi formamı əynimə geyinəndə qürur hissləri keçirdim. Vətənə əsgər olmuşdum. İlkin hazırlıq müddəti başa çatdıqdan sonra yay günlərinin birində təntənəli surətdə Hərbi Andı qəbul etdik. Həmin günü heç vaxt unutmayacağam. Hərbi Andı qəbul etdikcə gur səsimiz dalğa-dalğa ətrafa yayılırdı. Çox qürurverici anlar idi.

Xidmətə başlayanda öyrəndim ki, əsgəri olduğum hərbi hissənin şəxsi heyəti İkinci Qarabağ müharibəsində iştirak edib. Zabit və əsgərlər döyüşlərdə böyük igidlik və qəhrəmanlıqlar göstəriblər. Biz qəhrəmanlığı igidliyi onlardan öyrənirik.

Mən sürücüyəm. İdarə etdiyim texnikanı daim işlək vəziyyətdə saxlayıram. Çalışıram ki, sürücü kimi üzərimə düşən tapşırıqları peşəkarlıqla yerinə yetirim. Komandirlərimin, əsgər yoldaşlarımın rəğbətini qazanım. Xidmətimin xeyli hissəsi arxada qalıb. Bu müddət ərzində hərbi biliklərə dərindən yiyələnmişəm.

Əsgər olmağımla fəxr edirəm. Əsgər adı mənim üçün həmişə müqəddəs olub, bundan sonra da belə olacaq. Vətənin hər qarış torpağı bizim üçün müqəddəsdir. Bu müqəddəsliyin işığında xidmət etdiyimə görə özümü çox xoşbəxt hiss edirəm. Əminəm ki, bu xoşbəxtlik daim mənə sevinc gətirəcək.

**Əsgər**
**Fərhad MƏMMƏDOV**
**"N" hərbi hissəsi**

# Xəbərlər: hadisələr, faktlar

## Cənubi Sudanda silahlıların hücumları nəticəsində azı 3 BMT əməkdaşı həlak olub



Cənubi Sudanda silahlıların hücumları nəticəsində BMT-nin azı 3 humanitar yardım əməkdaşı və 11 mülki şəxs həlak olub.

Bu barədə Birləşmiş Millətlər Təşkilatının Humanitar Məsələlər üzrə Koordinasiya İdarəsi məlumat yayıb.

İdarənin Cənubi Sudandakı missiyasının rəhbəri Peter van der Auweraert bildirib ki, silahlı hücumlar Abyei inzibati zonasında həyata keçirilib.

O xatırladıb ki, 2022-ci ildə sərhəd bölgəsində BMT-nin 9 əməkdaşı həlak olub.

## Böyük Britaniya Ukraynaya müasir tanklar verəcək



Britaniya hökuməti Rusiyanın təcavüzünü dəf etmək üçün Ukraynanı öz tankları ilə təmin etmək qərarına gəlib.

Bu barədə "Financial Times" məlumat yayıb.

Bildirilib ki, Böyük Britaniyanın Baş naziri Rişi Sunak müdafiə nazirindən tanklar da daxil olmaqla, Ukraynaya yeni hərbi dəstək göstərməyi xahiş edib.

Əgər Böyük Britaniya Ukraynaya özünün "Challenger 2" tanklarını göndərsə, bu, rəsmi Kiyevin Qərb ölkəsi tərəfindən müasir ağır döyüş tankları ilə təmin edilməsi ilə bağlı ilk hadisə olacaq.

## Avstraliya ABŞ istehsalı olan "HIMARS" reaktiv artilleriya sistemlərini əldə edəcək



Avstraliya hökuməti silahlı qüvvələrin inkişafı məqsədilə ABŞ istehsalı olan "HIMARS" yüksək mobilliyə malik raket-artilleriya sistemlərinin əldə edilməsi barədə qərar qəbul edib.

Avstraliya KİV-ləri xəbər verir ki, məqsəd son vaxtlar Hind-Sakit okean regionunda artan gərginliklə əlaqədar Avstraliyanın materik hissəsinin müdafiəsini gücləndirməkdir.

Bildirilir ki, hökumət "HIMARS" sistemlərinin 2026-2027-ci illərdə əldə edilməsi planı ilə yanaşı, 2024-cü ildə hərbi dəniz qüvvələrinin Norveç istehsalı olan zərbə raketləri ilə təchiz olunacağını da elan edib.

Qeyd edilir ki, hazırda uçuş məsafəsi 300 kilometr təşkil edən "HIMARS" sistemlərinin daha uzaq hədəfləri vurması üçün ABŞ ilə birgə işlər davam etdiriləcək. Bununla yanaşı, ABŞ istehsalı olan B21 bombardmançı təyyarələrinin əldə ediləcəyi də bildirilir.

Hərbi gücünü artırmağa çalışan Avstraliyanın ABŞ və Böyük Britaniya ilə birlikdə öz atom sualtı qayıqlar donanmasında "Aukus" təhlükəsizlik sistemlərini yerləşdirəcəyi qeyd edilir. Tərəflər arasında Avstraliyanın şimalında yerləşən Tindall aviabazasında

## Polşa müdafiə strategiyasını dəyişir



Polşa Şərqdən hücum olacağı təqdirdə ölkənin müdafiəsi üçün əməliyyat planını dəyişib. İndi Polşa ordusu müdafiəni əvvəllər nəzərdə tutulduğu kimi ölkənin dərinliklərində deyil, birbaşa Rusiya və Belarusla sərhəddə saxlamaq niyyətindədir.

Bunu Polşanın müdafiə naziri Mariuş Blaşçak deyib.

Nazir qeyd edib ki, biz uzun illərdir qüvvədə olan doktrinanı tərk edirik. Buçadakı qırğın polyakları köhnə doktrinadan əl çəkməyə məcbur edib. Polşa hakimiyyəti öz ərazilərində belə faciələrin təkrarlanmasının qarşısını almaq niyyətindədir.

**AZƏRTAC-ın materialları əsasında**

# Müdafiə Nazirliyi mühəndis hərbi hissələrində müddətdən artıq həqiqi hərbi xidmət keçmək istəyənlərin qəbulunu elan edir

*Mühəndis hərbi hissələrində müddətdən artıq həqiqi hərbi xidmətə könüllü daxil olmaq arzusunda olan vətəndaşların qəbuluna başlanılır.*



Ən azı ümumi orta təhsilli, qanunla müəyyənləşdirilmiş müddətli həqiqi hərbi xidmətini başa vurmuş, **30 yaşınadək** hərbi vəzifəlilər **2023-cü il yanvarın 16-dan fevralın 4-dək** Azərbaycan Ordusunun Təlim və Tədris Mərkəzində fəaliyyət göstərən qəbul komissiyasına müraciət edə bilərlər.

"Müddətdən artıq həqiqi hərbi xidmət hərbi qulluqçularının hazırlığı kursu"na qəbul olunmaq üçün müraciət etmiş vətəndaşlar qəbul komissiyası tərəfindən hərbi xidmətə yararlılıq dərəcələrinin müəyyən edilməsi məqsədi ilə Müdafiə Nazirliyinin müvafiq tibb müəssisələrinə göndərilir. Hərbi Həkim Komissiyalarının qərarına əsasən hərbi xidmətə yararlı hesab edilmiş şəxslər qəbul imtahanlarına buraxılır.

Fiziki hazırlığı, ümumi bilik səviyyəsi, düşünmə qabiliyyəti, peşə maraqları, ünsiyyət qurmaq, liderlik və qərar qəbuletmə bacarıqları, həmçinin fərdi-psixoloji və digər keyfiyyətlərinin öyrənilməsi məqsədilə keçirilən imtahanları müvəffəqiyyətlə vermiş namizədlər kursa qəbul edilir.

Kursu müvəffəqiyyətlə başa vuran şəxslərlə üç il müddətinə bağlaşma imzalanır və onlar **ixtisaslarına uyğun mühəndis hərbi hissələrində** müvafiq vəzifələrə təyin olunurlar.

**Namizədlər qəbul komissiyasına müraciət edərkən aşağıdakı sənədləri təqdim etməlidirlər:**

- kursa qəbul olunmaq barədə ərizə (qəbul komissiyasının sədrinə);
- şəxsən yazılmış tərcümeyi-hal (əlyazma ilə 1 nüsxədə, çap edilmiş 2 nüsxədə);
- xidmət (iş və ya təhsil) yerindən xasiyyətnamə;
- təhsil haqqında sənədin notarial qaydada təsdiq edilmiş surəti (1 nüsxədə);
- doğum haqqında şəhadətnamənin notarial qaydada təsdiq edilmiş surəti (1 nüsxədə);
- şəxsiyyət vəsiqəsinin notarial qaydada təsdiq edilmiş surəti (1 nüsxədə);
- nikah haqqında şəhadətnamənin notarial qaydada təsdiq edilmiş surəti (evli olduqda, 1 nüsxədə);
- uşaqların doğum haqqında şəhadətnamələrinin notarial qaydada təsdiq edilmiş surətləri (uşaq olduqda, 1 nüsxədə);
- evlər idarəsindən və ya yerli icra hakimiyyəti orqanlarından ailə tərkibi və yaşayış yeri haqqında arayış (1 nüsxədə);
- 4 ədəd rəngli fotoşəkil (baş geyimsiz, anfas, 2 ədəd 3x4 sm və 2 ədəd 4,5x6 sm ölçüdə);
- qeydiyyatda olduğu poliklinikadan (dəri-zöhrəvi, vərəm, ruhi-əsəb, narkoloji və son 5 (beş) ildə infeksion xəstəliklərlə bağlı müraciət edib-etməməsi barədə) arayış;
- hərbi biletin bütün vərəqlərinin notarial qaydada təsdiq olunmuş surəti (1 nüsxədə).

**Sənədlərin qəbulu həyata keçiriləcək ünvan**: Bakı şəhəri, Yasamal rayonu, Şəfaət Mehdiyev küçəsi 76, "Qızıl Şərq" hərbi şəhərciyi (Azərbaycan Ordusunun Təlim və Tədris Mərkəzi).

**Müraciət etmə vaxtı**: 16 yanvar 2023-cü il tarixdən 4 fevral 2023-cü il tarixədək hər gün (bazar günləri istisna olmaqla) saat 09.00-dan 18.00-dək.

**Qeyd**: Müddətdən artıq həqiqi hərbi xidmətdən "Hərbi xidmətkeçmə haqqında" Əsasnamənin 156-cı maddəsinin "e" bəndinə (xidməti uyğunsuzluğa görə) müvafiq olaraq ehtiyata buraxılmış hərbi qulluqçuların və məhkumluğunun ödənilməsindən asılı olmayaraq məhkum olunmuş hərbi vəzifəlilərin kursa qəbul üçün müraciət etməmələri xahiş olunur.

*Hərbi texnikalar, silahlar*

# "Dəmir Şüa" lazer silah sistemi



Bu gün hərbi və mülki obyektlər havadan gələn mərmilər, raketlər və PUA-lar, eləcə də sürü dronlar da daxil olmaqla, getdikcə təkmilləşmiş təhdidlərlə üzləşirlər. Həmin təhlükələrin qarşısını almaq üçün yeni həll yolları tələb olunur. Bu zaman hava hücumundan müdafiə sistemləri yada düşür və ilk ağıla gələn də "Dəmir Günbəz" olur. Bu sistem dünyanın qüdrətli ordularından birinə malik olan İsrailin müdafiəsinin mərkəzində dayanır. Qabaqcıl silah sistemlərinin istehsalçısı "RAFAEL" şirkətinin məhsulu olan və keçilməz bir qalxan olduğunu sübut edən "Dəmir Günbəz" 97 faizə qədər tutma dərəcəsi ilə İsrailə atılan 5000-dən çox raketi zərərsizləşdirib.

"Dəmir Günbəz" naməlum hədəfləri müəyyən edərək, hədəf olmayan vasitələrə müdaxilə etmədən yüksək sıxlıqlı hava məkanlarında işləməyi bacarır. "Dəmir Günbəz" həm də modul anti-dron sistemidir, stasionar və ya mobil konfiqurasiya kimi də istifadə edilir. Bu sistemi əldə etmək üçün dünyanın bir çox ölkəsi İsrailə müraciət edib.

İsrailin "RAFAEL" şirkəti öz növbəsində "Dəmir Günbəz"i geridə qoyacaq yeni bir hava hücumundan müdafiə sistemi istehsal edib. Artıq bəzi ölkələr İsrailin "RAFAEL" şirkətinin istehsalı olan "Dəmir Şüa" ilə maraqlanmağa başlayıb.

Yüksək enerjili lazer silah sistemi olan "Dəmir Şüa" geniş spektrli təhdidləri dəqiqliklə neytrallaşdıra, hərbi qüvvələri və mülki əhalini qoruya, müxtəlif platformalara və sistemlərə inteqrasiya oluna bilər. 100 faiz tutma dərəcəsi ilə "Dəmir Günbəz"dən daha həlledici olacağı gözlənilən "Dəmir Şüa" dünyada nadir hallarda rast gəlinən yüksək effektli müdafiə sistemlərindən biridir.

Sistem qısamənzilli raketləri, artilleriya və minaatan mərmiləri, eləcə də pilotsuz uçuş aparatlarını məhv etmək üçün nəzərdə tutulub. "Dəmir Şüa" 20 km məsafədə atışdan sonra 4-5 saniyə ərzində hava hədəfini məhv etmək üçün fiberoptik lazerdən istifadə edir. 7 kilometrlik təsirli məsafəyə malik olan "Dəmir Şüa" müstəqil sistem kimi də fəaliyyət göstərə bilir, hava hücumundan müdafiə sisteminin bir hissəsi olaraq da kənar müdaxilə ilə hərəkət edir. Bu silahın raket qurğuları ilə müqayisədə əsas üstünlükləri atış başına daha az xərc, qeyri-məhdud sayda atəş, aşağı əməliyyat xərcləri və daha az işçi qüvvəsinin olmasıdır. Həm də müdafiə olunan əraziyə heç bir təhlükəli maddə, sursat və ya mərmi qalığı düşə bilməz. Sınaqlar zamanı sistem vasitəsilə pilotsuz təyyarələr, raketlər və minaatan mərmiləri uğurla məhv edilib.

Bir sözlə, "Dəmir Günbəz"dən daha təkmil olan "Dəmir Şüa" İsrail müdafiə sənayesinin yeni uğurudur.

**Hazırladı:**
**Nəriman NƏCƏFOV**

# İdman

## Bakıda keçiriləcək "Arpachay Open"də 10-dək ölkədən 1500-dən artıq karateçi iştirak edəcək




Bakıda 20 Yanvar şəhidlərinin xatirəsinə həsr olunmuş "Arpachay Open" beynəlxalq karate turniri keçiriləcək.

Turnir yanvarın 20-22-də Gənclər və İdman Nazirliyinin dəstəyi, "Arpaçay" karate klubu və Azərbaycan Milli Karate Federasiyasının (AMKF) birgə təşkilatçılığı ilə baş tutacaq.

Turnirlə bağlı fikirlərini bölüşən "Arpaçay" klubunun prezidenti, Əməkdar məşqçi Yavər Hüseynov ölkəmizdə 7-ci dəfə təşkil olunacaq beynəlxalq turnirin Bakı İdman Sarayında keçiriləcəyini deyib: "Ənənəvi turnirə hazırlıq işləri intensiv olaraq davam edir. Üç gün davam edəcək turnirin təntənəli açılış mərasimi yanvarın 21-də olacaq. Kata və kumite yarışlarında iştirak edəcək uşaq, yeniyetmə və gənc idmançılar bütün kateqoriyalar üzrə mübarizə aparacaqlar".

Klubun rəhbəri bildirib ki, turnirdə 10-dək ölkədən, habelə paytaxt Bakıdan və Azərbaycanın əksər regionlarından 1500-dən artıq idmançının iştirakı gözlənilir.

## Robert Levandovski XXI əsrin üçüncü onilliyinin bombardirləri siyahısına başçılıq edir



Beynəlxalq Futbol Tarixi və Statistikaları Federasiyası (IFFHS) XXI əsrin üçüncü onilliyinin bombardirlərini açıqlayıb.

2021-ci və 2022-ci illərin cəmində ən çox qol vuran futbolçuların siyahısı bəlli olub.

Cədvələ polşalı Robert Levandovski başçılıq edir. Futbolçu 2021-ci ilin martından bəri liderliyi heç kimə verməyib. Geridə qalan iki il ərzində cəmi iki oyunçu 100 qol həddini keçə bilib ki, bunu bacaran digər futbolçu fransalı Kilian Mbappedir. Belə ki, R.Levandovskinin hesabında 111, K.Mbappedə isə 107 qol var. İlk üçlüyü 95 qolla Erlinq Haaland tamamlayır.

Siyahıda üçüncü onilliyin ilk iki ilində 50 və daha çox qol vuran 49 oyunçu yer alıb.

## Builki Formula-1 Azərbaycan Qran-Prisinə bilet satışı son 6 yarışla müqayisədə rekord həddə yüksəlib



Cari ildə keçiriləcək Formula-1 Azərbaycan Qran-Prisinə bilet satışı davam edir. Bilet satışının göstəriciləri ötən illə müqayisədə iki dəfə artıb.

Göstəricilər son 6 yarışla müqayisədə rekord həddə yüksəlib. Biletlər ötən il dekabrın 15-dən satışdadır və yarışı izləmək istəyənlər 20 faiz endirimlə təklif olunan kampaniyadan yanvarın 15-dək yararlana bilərlər. Ümumilikdə biletlər yarışadək satışda olacaq.

İlkin endirim kampaniyası müddətində ayaqüstü yerlər üçün biletlər 40 manatdan 120 manatadək, tribuna biletləri 160 manatdan 690 manatadək, azyaşlılar üçün biletlər isə 110 manatdan 480 manatadək olan qiymət aralığındadır. Yanvarın 15-dən sonra biletlərin satışı tam qiymətlərlə davam etdiriləcək.

Qeyd edək ki, Formula-1 Azərbaycan Qran-Prisi aprelin 28-30-da Bakı şəhər halqasında keçiriləcək.

**AZƏRTAC-ın materialları əsasında**

Leytenant Əmirquliyev Xalıq Əkbər oğluna məxsus MN № 0064153 nömrəli zabitin şəxsi vəsiqəsi itdiyi üçün etibarsız sayılır.

Baş redaktorun müavini
kapitan
Məhəmməd NƏSİRLİ

Telefonlar
Baş redaktor: (012) 510-71-97 (faks);
Baş redaktorun müavini: (012) 510-64-27;
Məsul katib: (012) 510-71-98;
Məktublar şöbəsi: (012) 510-64-28.

Ünvanımız
Bakı şəhəri, akademik Şəfaət Mehdiyev küçəsi 144, "Qızıl Şərq" hərbi şəhərciyi

Növbətçi
Bəxtiyar ƏLİYEV

Qəzetin hesabı
Nərimanov Rayon Xəzinədarlığı
Kod: 200189
VÖEN: 1500428611

Qəzet həftədə iki dəfə (III-VI günlər) nəşr olunur. "Azərbaycan Ordusu" qəzeti kompüter mərkəzində səhifələnərək "Hərbi Nəşriyyat"ın mətbəəsində hazır diapozitivlərdən çap olunur. Əlyazmalara rəy verilmir, təqdim edilən yazılar müəllifə qaytarılmır.
Qəzeti mod.gov.az saytından oxuya bilərsiniz.

Lisenziya № 361
Sifariş № 21
Nüsxə 4661